# Türk tarixi və mifoloji dünyagörüşündə atlar



**Hikmət Babaoğlu**
**siyasi elmlər doktoru, professor**

əvvəli ötən sayımızda

***Atlar yenə də həlledici varlıqlardır. Onlar qəhrəmanın və xalqın həyatında böyük rol oynayacaqlarg Beləliklə, Altay dağlarının ətəklərində hökm sürmüş, xalqını yaxşı idarə etmiş Alp xanla onun həyat yoldaşı Ak Ölen Arığ dünyasını dəyişib. Öksüz və yetim qalmış, yəni atadan və anadan yetim qalmış Çibetey xan uşaqdır. Oba xalqı onu böyütmək üçün iki bacı olan Piçen Arığ ilə İçen Arığı dayə seçib. Lakin İçen Arığ həddindən çox eqoist və pis niyyətlidir. Gələcəkdə bu uşağın xan olacağını qəbul etmək istəmir. Özu xan olmaq fikrinə düşür. Təsadüfən atası Sayzandan öyrənir ki, Kirin dağının zirvəsindəki altıbaşlı Ak kayanın içindəki gizli mağarada bu vaxta qədər Alp xanın qoruyucusu olmuş Huy İnəydən (Huy İnək obrazı bizim dastanlarımızdakı Hal anası obrazı ilə eyniləşdirilə bilər. Lakin bizim dastanlarda Hal anası əksər hallarda mənfi, Huy isə əsas etibarilə müsbət obraz kimi çıxış edir) daha güclü bir qız və yanında da Ak-Boz at var. Ancaq onlar qaya şəklindədirlər. Lap elə bu günlərdə Tenqri onlara ruh verəcək və onlar qayadan qoparaq canlanacaq, Alp xanın obasını və Çibeteyi qoruyacaqlar.***

Dayə İçen Arığ bunu öyrənər-öyrənməz əlinə toppuz alaraq hələ canlanmamış atı və qoruyucu mələyini dağıtmaq üçün bacısı ilə bərəbər həmin dağa üz tutur. Dağa çatanda Huy İnəyin səsini yamsılayaraq mahnı oxumağa başlayır. Bu zaman dağın bir yerindən qapı açılır və onlar mağaraya daxil olurlar. Doğrudan da Ak-Boz at bütün möhtəşəmliyi ilə burada dururmuş. Onun yalmanı və dırnaqları qızıldan, yəhəri daşdan, boyu doqquz qulac imiş(Qeyd etmək lazımdır ki, Sasani hökmdarı Xosrov Pərvizin də madyanı mağarada olan ayğır heykəlindən döllənmiş və məşhur Şəbdüz və Gülgün adlı atları dünyaya gətirmişdi. Deməli, mağara və əfsanəvi qoruyucu at süjeti farslara türklərdən keçib. Elə farslar da atları təqribən yunanlarla eyni vaxtda, yəni türklərdən min il sonra tanıyıblar. Xosrov Şirinə aşiq olduqdan sonra əfsanəviGülgün atını ona hədiyyə edir). Bu əfsanəvi atın tayı bərabəri yoxmuş. Ondan biraz irəlidə də qoruyucu mələk Altın Arığ daş heykəl halında dayanıbmış. Bu qız uzun boylu, incə belli, baxanın gözünü qamaşdıracaq vücuda və gözəlliyə sahibmiş. Əynində düyməli zirehi, saçının altmış hörüyü arxasında, əlli hörüyü isə çiyinlərinə yayılıbmış. Piçen Arığ toppuzla əvvəl qıza hücum edir, lakin qayadan heç bir parça da qopara bilmir, sonra ata hücum edir. Yenə də bir nəticə ala bilmir. Bu zaman Ak qayanın uğultusunu eşidən İçenin atası mağaraya qalxır. Qoruyucu mələyin ayılan kimi qızlarını cəzalandıracağından qorxaraq əvvəl mələyə üç dəfə “öləcəksən” deyib, sonra qılıncla onun başını vurur. Heykəlin başı bədənindən ayrılır. Sonra eyni şəkildə atın boynunu bədənindən ayırır. Piçen obaya gələrək Çibeteyi də mağaraya aparıb orada öldürür və özünü xan elan edir. Çox qəddar və zalım bir xan olur. Bir gün həyətdə durarkən göydə uçan iki quzğunun söhbətinə şahid olur.

***Qara quzğun yoldaşı Ala quzğuna gördüklərini danışırmış. Piçen Arığ sehrli səsi ilə mahnı oxuyur və quzğunları yerə endirir. Onları tutub çadıra aparır, cəza verərək soruşur ki, siz uçaraq hər şeyi görürsünüz. Deyin görüm mən kiminlə evlənəcəyəm. Qara quzğun da deyir ki, Sarı dağın ətəyində, Sarı gölün yanında Alp Sağday var, çox güclü, amma çox da çirkin bir bahadırdır. Sən onunla evlənəcəksən. Belə olduqda Piçen Arığ Ala quzğunu əsir saxlayıb Qara quzğundan Alp Sağdaya xəbər göndərərək onu yanına çağırır. Alp Sağday gəlir və bir qədər tərəddüddən sonra Piçen Arığla evlənir.***

Lakin deyir ki, alplar öz yurdlarında yaşayarlar. Sən obanı da götür gedək Sarı irmağın yanında, mənim yurdumda yaşayaq. Obada buna etiraz edənləri qılıncdan keçirirlər və Ak irmağın yanındakı ata yurdu boş qalır. Bu sıralarda boz qurd şəklinə düşmüş Huy İnək başqa obaları yoxlayaraq qayıdırmış. Bir də görür ki, oba yerində yoxdur. Sürətlə gedərək köçə çatır, işin nə yerdə olduğunu öyrənir. Mağaraya qayıdaraq Ak-Boz atı, Altın Arığı və Çibeteyi diriltdir. Oğlu Hulatayı da Qara Kula atı ilə Çibeteyə yoldaş edir ki, obamı xilas etsinlər.

Göründüyü kimi, burada da qəhrəmanlarla bərabər atlar da xilaskar rolundadır. Bu prosesdə atlarla bağlı bir sıra maraqlı məsələlər ortalığa çıxır. Altın Arığqara kürən atlı bir igidin onlara kömək etmək istədiyini anlayır. İgidi təqib edir və onunla tanış olurlar. Sən demə, o, Çibeteyin xalası oğlu imiş. Lakin başqa obada yaşayırmış. İgidlə xeyli söhbət edirlər, lakin o, adını demir. Altın Arığın israrından sonra bildirir ki, onun indi mindiyi at eynən bunun kimi qara kürən bir atın balasıdır. Ancaq o, uşaq ikən obanın qabağından ən yaxşı atı olan iki qanadlı Xan Bozrax adlı atını oğurlayıblar. İndi atı olmadığına görə adı da yoxdur. Çünki igid atı ilə anılır. Atını tapmayınca adı da olmayacaq. Doğrudan da sonda atını tapır və özünə Xan Tibet adını verir. Ak İrmağ obasının xilas edilməsində Bükülməz Qanadlı Xan Bozrax at, iki qanadlı Xan Bozrax, Ak-Boz at, Qara Kula at böyük qəhrəmanlıqlar göstərərək sahiblərini oxdan yayındırır, qılıncdan xilas edirlər. Hətta bu atlının qəhrəmanlığını görən düşmən bəyi acıqlanaraq özünün Göy Bora atını daşla vuraraq öldürür. Nəhayət, xakas xalqı Ak İrmağın sahilindəki vətəninə qovuşur,firavan yaşamağa başlayırlar. Lakin bu çox sürmür. Altın Arığ və Çibetey xan ölür. Yenidən savaş başlayır. Xakas xalqı Altın Arığla Ak-Boz atın həsrətini çəkməyə başlayır. Nəhayət, bir müdrik el ağsaqqalı qəhrəmanların öldüyü qumlaq bir vadiyə gəlir. Əvvəlcə qızıl ağacla qızıl qumu qarışdırır. Qumun içindən bir topuğ sümüyü və bir at dırnağı tapır. Qızıl əsasıyla topuk sümüyünə üç dəfə vurur. Bu sümükdən bir alp meydana gəlir. Alpın adını Taptağan Mirgən qoyur.Dırnağa da üç dəfə vurur. Dırnaqdan bir at çıxır. Bu atın da adını Ak Oy at qoyur. Taptağan Mirgən Altın Arığı, Ak Oy at isə Ak-Boz atı əvəz edir. Onlar xakas xalqını bu gün də himayə edir və qoruyurlar.

Göründüyü kimi, at igidlə bərabər bir xalqın taleyini qurtarır. Ona görə də böyük fateh Çingiz xan demişdir ki, bir mıx bir nalı, bir nal bir atı, bir at bir sərkərdəni, bir sərkərdə bir ordunu, bir ordu bir dövləti qurtarar. Çox da uzaq olmayan, cəmisi 150-200 illik keçmişə qədər elə doğrudan da belə idi.

İndi isə bu dastanda olan və bir növ, kodlaşdırılmış gizli informasiyanı açmağa çalışaq. Beləliklə...

## Mifologiya dövrü bəşəriyyətin müdriklik dövrüdür

***Biz artıq yuxarıda qeyd etmişdik ki, bütün elm adamları hesab edir ki, mifologiya dövrü bəşəriyyətin uşaqlıq dövrüdür. Biz isə hesab edirik ki, mifologiya dövrü bəşəriyyətin müdriklik dövrüdür. Heç bir mifoloji süjet xəyal məhsulu deyil. Bizdən əvvəlki sivilizasiyalar dövründə əldə edilmiş, sonra isə dağılmış elmi-texniki tərəqqi və onun nailiyyətləri haqqında bizə məlumat verən dəyərli və sistemli informasiya vasitəsidir. Diqqət edin,“Altın Arığ” dastanında qeyd edilir ki, bir müdrik el ağsaqqalı qəhrəmanın topuk sümüyünü, onun atının isə dırnağını tapıb onlara qızıl əsa ilə vuraraq qəhrəmanın və atın eynisini yaradır.***

Fikrimizcə, bu, bizdən əvvəlki sivilizasiyada müasir sivilizasiyanın hələ indi-indi əldə edə bildiyi genetik klonlamadır. Yəni müasir dövrdə tibb elmi hər hansı bir canlıdan hüceyrə nümunəsi əldə etməklə onun genetik klonunu yarada bilir. Deməli, bizdən əvvəlki sivilizasiyalarda bunu daha yaxşı etməyi bacarırlarmış. Mifoloji süjet, əslində, bizə bu informasiyanı ötürüb. 50 il bundan öncə belə düşünməyə əsasımız yox idi. İndi isə var. Çünki mifoloji hadisə indi elmdə təkrar edilməklə öz təsdiqini tapır. Elə uçan xalça-təyyarə bənzərliyi, yaxud simurq quşunun tükünü verməsi və onu yandıran zaman dərhal özünü yetirməsiaz qala bizin vizit kartımızın, yaxud mobil telefonumuzun nömrəsinin verilməsi ilə eyniyyət təşkil edir. Belə müqayisələrin sayını kifayət qədər artırmaq olar. Əminik ki, gələcəkdə elmi-texniki tərəqqi inkişaf etdikcə mifoloji süjetlərimizi və orada dərk edilməsi çətin olan hadisələri daha yaxşı dərk edəcəyik. O zaman Misir piramidalarının sirrini də, Mayya mədəniyyətini də, Şumer annunak fəlsəfəsini də daha aydın dərk edəcəyikg Bunları yəqin etdikdən sonra yenidən ibtidai sivilizasiyaya dönməyimizin vaxtının çatdığını da hiss edəcəyik.



**qəhrəmanlarla bərabər atlar da xilaskar rolundadır. Bu prosesdə atlarla bağlı bir sıra maraqlı məsələlər ortalığa çıxır. Altın Arığqara kürən atlı bir igidin onlara kömək etmək istədiyini anlayır. İgidi təqib edir və onunla tanış olurlar. Sən demə, o, Çibeteyin xalası oğlu imiş. Lakin başqa obada yaşayırmış. İgidlə xeyli söhbət edirlər, lakin o, adını demir. Altın Arığın israrından sonra bildirir ki, onun indi mindiyi at eynən bunun kimi qara kürən bir atın balasıdır. Ancaq o, uşaq ikən obanın qabağından ən yaxşı atı olan iki qanadlı Xan Bozrax adlı atını oğurlayıblar. İndi atı olmadığına görə adı da yoxdur. Çünki igid atı ilə anılır. Atını tapmayınca adı da olmayacaq. Doğrudan da sonda atını tapır və özünə Xan Tibet adını verir**

## “Nart dastanı”nda atlar

***“Nart dastanı” Şimali Qafqaz türkləri olan balkar və qaraçay türklərinin dastanıdır. Bu dastanın səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, ümumi türk genetik yaddaşına söykənir və digər türk dastanları ilə eyni mənbədən qidalanır. Ancaq bununla belə, dastanda tarixi yaddaş olduqca canlıdır. Hər nə qədər dastanın formalaşdığı coğrafiya Qafqazlar kimi qəbul edilsə də, fikrimizcə, bu, bir qədər formal xarakter daşıyır. Hesab edirik ki, bu dastan balkar və qaraçayların köç trayektoriyasını özündə əks etdirir və olduqca qədim dövrlərə gedib çıxır.***

(davamı gələn sayımızda)